# PEDAQOQ, ŞAİR, MÜDRİK...

## *Məhəmmədəli Mehdixanlı obrazı haqqında düşüncələr*

***Məhəmmədəli Mehdixan (Mehdixanlı Məhəmmədəli Alı oğlu) "Tanrım, bu dünyanı yenidən yarat" (poemalar və hikmətli sözlər) "Vətən" nəşriyyatı, 2021.***

***376 səhifə.***

***Şair-pedaqoq Məhəmmədəli Mehdixanın "Tanrım, bu dünyanı yenidən yarat" kitabına onun poemaları və hikmətli sözləri toplanıb.***

***Məhəmmədəli Mehdixan nüfuzlu pedaqoq və səmimi şair kimi tanınır. Onun əsərlərində zamanına, mühitə, bir sözlə, sərt həqiqətlərə aydın münasibət var. O, yaxşı tanıdığı mühiti poetik düşüncəsindən***




***keçirərək sözə gətirir. Bir çox hallarda onun münasibəti rəngləri qatı çəkməsi ilə diqqəti çəkir. Hər halda bu bir müəllif münasibətidir. Həyatın qaranlıq tərəflərini də aydın görmək və öz sözünün işığında göstərmək müəllif missiyasıdır. Hikmətli sözlərində də prinsipial müəllif mövqeyi açıq-aydın duyulur. O, yaşa dolmuş müdrikin həyat təcrübəsinin nəticəsi olaraq obrazlı deyimlərini ərsəyə gətirib.***

***Məhəmmədəli Mehdixanın "Tanrım bu dünyanı yenidən yarat" kitabının oxucular tərəfindən maraqla qarşılanacağına inanırıq.***

***"Tanrım, bu dünyanı yenidən yarat"***
***kitabını həsr etdim İkinci***
***Qarabağ savaşında canlarından keçmiş***
***şəhidlərimizin xatirəsinə və***
***Böyük Qələbəmizin şərəfinə.***
***Eşq olsun Azərbaycan Ordusuna!***
***Qarabağ Azərbaycandır!***

**Müəllifdən.**

Doğrusu, qırx il bundan əvvəl Məhəmmədəli Mehdixanlı adı ilə tanıdığım dostumu şair görmüşdüm. İlk dəfə şair kimi gördüyüm Məhəmmədəli Mehdixanlı yenə elə öz şairliyindədir. Yəni, dünyaya, həyata, insanlara uca göylərdən baxmaq istəyindədir.

Hər kəsə nəsib olan deyil; həyatın min cür acılıqlarına tuş gələ, amma, yenə dünyaya, həyata, insanlara sevgi ruhunu qoruyub saxlaya... Məhəmmədəli Mehdixanlı əsəblərinin tarıma çəkildiyi məqamlarda, yurd ayrılığının varlığını yurd həsrətinin taladığı zamanlarda Allaha tapındı. İstəyilə dünyanın ona verdiyi arasındakı təzadların yaratdığı gərginliklərə davam gətirmək asan deyildi. Ancaq, o, Allaha və sözə tapınmaq iddiasını gerçəkləşdirə bildi. Dünya acılıqlarını Allahın verdiyi qismət kimi yaşadı. Bir-bir mühitindən köçüb gedən əzizlərinin xatirəsini yurd ağrısı ilə birgə yaddaşına yazdı.

44 günlük Qarabağ savaşı az qala 30 ildir ki, M.Mehdixanlının mənəvi mühitində öz dəhşətləri ilə yaşamaqdaydı. Onun gözlərinin önündə ümidsizliyin boz rənginə bürünmüş həyat başdan-başa iztirab idi.

Yaxşı budur ki, xalqımızın taleyinə çox acı şəhidlər dağı çəksə belə 44 günlük Qarabağ savaşı qələbə ilə başa çatdı. Doğrudur, bu savaşda çox doğmalarımızı itirdik. Məhəmmədəli Mehdixanlı da istisna deyil. O da neçə-neçə istəklilərinin Vətənə qurban gedən taleyilə qarşılaşmalı oldu. Ancaq, bütün bunlar onu ruhdan salmır. Onun poetik düşüncəsini dağıda bilmir. Yaxşı bilir ki, yazmaq, yaratmaq insanın özündən sonra qoyacağı izdir. Ancaq, yazmaq, yaratmaq üçün, əlbəttə, yaşamaq lazımdır.

Əsl sənətkar odur ki, yaşamağın çətin olduğu məqamlarda sözünü demək imkanını özündə saxlasın. Bu kitaba şair Məhəmmədəli Mehdixanlının öz dövrünə, zamanına münasibətini bildirən "Mənim ömür yolum" poeması və "Hikmətli sözlər"i daxil edilib. Ancaq, şair "Xançoban və Sara" əfsanəsi əsasında yazdığı poemanı da oxuculara təqdim edəcəyi kitabına daxil etməyi unutmayıb.

"Xançoban və Sara" əfsanəsi zaman-zaman Azərbaycan xalqının yaddaşında yaşayıb. İnsanları sədaqətə, məhəbbətdə vəfaya səsləyib.

M.Mehdixanlının ruhu, varlığı nakam məhəbbətin odunda, ocağında yanıb qovrulur. Həmin əsərdən bircə parça bəs edir ki, oxucu şairin bu əsəri hansı əhvalla yazdığını başa düşsün:

Xan Araz sakitdir, o yenə axır,
Günəş də səmadan yerlərə baxır.
Xan Araz sakitdir, o, yenə axır,
Ata da kədərlə Araza baxır.
Günəş də səmadan sanki qan çaxır,
Xan Araz sakitdir, o yenə axır.
Atanın gözünə ildırım çaxır.
Muğanın qızları geyinib qara,
Bayatı deyirdi uçan quşlara:
"Gedin deyin Xançobana,
Gəlməsin bu il Muğana.
Muğan batıb nahaq qana.
Apardı ellər Saranı,
Bir uca boylu balanı".
Dinlədim anamı mən yana-yana,
Baxdım ki, bu dastan çatanda sona.
Anamın qəlbindən qopdu bir ataş,
Axdı yanağına iki damla yaş.

Görünür, şair belə bir əbədi həqiqəti unutmur ki, insanlar yalnız sağlam, saf məhəbbət naminə yaşamağı daha üstün bilirlər.

Şairin yaradıcılığında "Mənim ömür yolum" adlı poeması xüsusi əhəmiyyət kəsb edir. Bu əsərdə o, öz dövrünə, zamanına real münasibət bildirməyə çalışır. Şübhəsiz, bəzən ifrata varır, hətta bəzən onun qəti hökmlərilə biz razılaşa bilmirik. Ancaq, bir şair olaraq onun həyata münasibətinin necə olduğuna etiraza yer qalmır. Çünki, bu onun öz münasibətidir. Hər halda şair həyatı necə görürsə, gördüyü, duyduğu kimi yazmağa özünü haqlı bilir.

Sabah işıqlı gələ
Olmayaq yenə kölə.
Şöhrətə, ada çataq,
Xankəndinə yol salaq.
Zəngəzur, Göyçə gölü,
Onlar diri, biz ölü.
Boş-boşuna coşuruq,
Nəğmə deyib coşuruq.
Xalça-palaz toxuduq,
Yad musiqi oxuduq.
Mənim ömür kitabım,
Mənim həyat kitabım.

M.Mehdixan Azərbaycan şairidir, Yazıçılar Birliyinin üzvüdür. Bu Vətənin, bu millətin son bir qərinədə başına gələn müsibətlərin şahididir. Ona görə də, kimsə onu dünyanı ittiham etməkdə qınaya bilməz. Özü də bir sənətkar kimi kifayət qədər öncəgörmələri var. İnamını itirmir, bilir ki, torpaqlar, yurd, Qarabağ tezliklə işğaldan azad olunacaq. Poemalarında, əsərlərində o, bu inamı həmişə qabarıq verir. Xüsusilə, "Mənim inam yolum" adlı poemasında onun Vətənin işğaldan tezliklə qurtulacağına inamı çox qabarıq görünür, hətta o, gələcəkdə Qarabağın necə yenidən qurulacağını belə aydın təsəvvür edir. Xoşbəxt o şairdir ki, arzuladığını, istəklərini öz zamanında görə bilir. 44 günlük müharibə, Azərbaycan Ordusunun müzəffər yürüşü Azərbaycan xalqının istəklərini gerçəkləşdirdi. Ali Baş Komandanın və Azərbaycan Ordusunun nəyə qadir olduğunu bütün dünya gördü. M.Mehdixan zaman-zaman yazdığı əsərlərində arzuladıqlarının necə gerçək olduğunu öz gözlərilə gördü. Onun kəskin tənqidlə ifşa etdiyi ATƏT-in Minsk qrupu həqiqətən son nəticədə rəzil vəziyyətə düşdü. Onların müdafiə etdiyi Ermənistan kapitulyasiya aktına imza atdı.

Budur şair öncəgörməsi, budur sənətin həyat hadisələrini qabaqlaması. Əgər şair öz əsərlərində gələcəyi aydın təsvir edə bilmirsə, demək, onun ilhamı Tanrıdan güc almır.

M.Mehdixan bütün varlığı ilə Ulu Tanrıya bağlı sənətkardır.

Təzə söz, yeni adət,
Dərs verib bizə ATƏT.
Səbir edib dözürük,
İşin sonun görmürük.
Daş qazanda qaynayır,
Uşaq baxır ağlayır.
Şeytan dolur qəlbinə,
Tüpürürsən səbrinə.
Neçə il dözmək olar,
Torpaq yağıda qalar.
Mənim ömür kitabım,
Mənim həyat kitabım.

Kitabın bir bölməsi də Məhəmmədəli Mehdixanlının həyata, cəmiyyətə, dünyaya fəlsəfi ümumiləşdirmələrlə münasibətini əks etdirən "hikmətli sözlər"dən ibarətdir. Sənətkarın çox maraqlı dəyərli aforizmləri var. Doğrudur, bütün aforizmlərdə, hikmətli sözlərdə - bütün beytlərdə eyni bədii dəyəri axtara bilmərik. Ancaq bütün hallarda şair düşüncələrini ifadə edən beytlərini öz məramı kimi ifadə edir:

Allah da buyurur; elmi öyrənin,
Savadsız olmayın, məktəbə gedin.

Elmi bilikləri öyrənən insan,
Cənnətin yolunu tapacaq, inan.

Savadsız insanın düşüncəsi dar,
Gözləri bağlıdı, qulaqları kar.

Məhəmmədəli Mehdixan açıq danışmağı sevən şairdir. O, epik-lirik düşüncəsində də həyatı bütün ziddiyyətlərilə göstərməyə çalışır. İstər "Mənim ömür yolum" adlı poemasında, istərsə də "Hikmətli sözlər"ində cəsarətlidir. Bəzən həqiqətləri çılpaqlığı ilə yazıya gətirsə də, onu heç bir oxucu qınamaz. Çünki, çox ziddiyyətli zamanın şairidir, çox əzablı dövrün şairidir.



* * *

Bir neçə kəlmə də Məhəmmədəli Mehdixanın ədəbi-ictimai rolu haqqında danışmaq istərdim. Cəbrayıl rayonundan olan məcburi köçkünlər Biləsuvar rayonunun ərazisindəki qəsəbələrdə məskunlaşıb. Bu qəsəbələrdə kifayət qədər intellektual, istedadlı ziyalılar yaşayırlar. Musa Aslanxanlı, Süleyman Alıyev, Mirzə Mirimli, Hidayət Səfərli, Əməkdar müəllim Rəhim Rəhimov, bəlkə, haqqında məlumatım olmayan bir çox yeni nəsil söz-sənət tapınağı olan sənətkarlar da var. M.Mehdixanın belə bir mühitdə pedaqoq, şair, müdrik insan kimi görünməsi onun mənəvi keyfiyyətlərinin kifayət qədər üstünlüyü ilə izah oluna bilər. Uzun müddət məktəb direktoru işləyib. Qabaqcıl Maarif Xadimidir, bir ağsaqqal kimi sözü ötən, hörməti sözündə görünən ziyalıdır. Onun rəhbərlik etdiyi məktəbin bir vaxt Bakı Slavyan Universiteti ilə əməkdaşlığı - yaradıcılıq və pedaqoji əlaqələri indi də xoş xatirə kimi yadda qalır.

Azərbaycanın görkəmli alimi, Xalq yazıçısı, o vaxt universitetin rektoru olan Kamal Abdulla rəhbərlik etdiyi universitetdə M.Mehdixanın kitabının təqdimatının keçirilməsinin təşəbbüskarı olur və bu hadisə şairin həyatında unudulmaz anlar kimi öz izini buraxır.

M.Mehdixan Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Söz-sənət adamı kimi müasirləri tərəfindən hörmətlə qarşılanır.

...Bəli, Məhəmmədəli Mehdixan ilhamı ilə, Tanrının bəxş etdiyi istedadı ilə qalxdığı şairlik mərtəbəsində yenə əzmlə dayanır.

*Ə.R.XƏLƏFLİ*